DOI: https://doi.org/10.36719/2706-6185/18/16-20

**Seyid Həmid oğlu Həmidov**
Azərbaycan Turizm və Menecment Universiteti
magistrant
hamidov.seyid.2101@atmu.edu.az

# ÖLKƏDƏ MÜƏSSİSƏLƏRİN İNNOVASİYA FƏALİYYƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ VƏ QİYMƏTLƏNDİRMƏ METODLARI

**Xülasə**

Azərbaycanda son zamanlar iqtisadi inkişafla bağlı aparılan islahatlar innovasiya fəaliyyətinin aktivləşməsində yeni imkanlar yaratmış və məqsədli proqramlar qəbul olunmuşdur. Həmin sənədlərə müvafiq innovasiya strukturlarının, texnoparkların yaradılması nəzərdə tutulur. Artıq ölkədə investisiya mühitinin daha da yaxşılaşdırılmasına yönəldilən bir sıra tədbirlər həyata keçirilmişdir. İnnovasiyalı iqtisadiyyata keçidlə əlaqədar olaraq respublikamızda müəssisələrdə innovasiyanın tətbiqi və müəssələrin fəaliyyətinin bütün funksional sferalarında səmərəliliyin yüksəldilməsi üçün geniş imkanlar var ki, bu baxımdan da mövzu aktual xarakter daşıyır.

***Açar sözlər:*** *innovasiya, investisiya, müəssisə, iqtisadiyyat, İKT, struktur*

**Seyid Hamid oglu Hamidov**
Azerbaijan University of Tourism and Management
master
hamidov.seyid.2101@atmu.edu.az

## Main directions and assessment methods of the innovation activity of institutions in the country

**Abstract**

Recently, reforms related to economic development in Azerbaijan have created new opportunities for the activation of innovation activity and targeted programs have been adopted. According to those documents, it is envisaged to create innovation structures and technology parks. A number of measures aimed at further improving the investment environment have already been implemented in the country. In connection with the transition to an innovative economy, there are ample opportunities for the application of innovation in enterprises in our republic and the improvement of efficiency in all functional spheres of the enterprise's activity.

***Keywords:*** *innovation, investment, enterprise, economy, ICT, structure*

## Giriş

İnnovasiya fəaliyyəti dedikdə istehsal, kommersiya, idarəetmə və digər proseslərin səmərəliyini artıran elmi tədqiqatların və təcrübi-konstruktor işlərinin (ETTKİ) nəticələrinin praktiki tətbiqi nəzərdə tutulur. İnnovasiya prosesinin nəticəsində yeni və ya təkmilləşmiş məhsul, xidmət təklif olunur. Eyni zamanda innovasiya texnoloji prosesləri, idarə və təşkiletmə proseslərində tətbiq oluna bilər. İnnovasiya fəaliyyəti cəmiyyətin intellektual fəaliyyətinin təkmilləşdirilməsinə yönələn nəticədir (Atakişiyev, 2004: 10).

Hal-hazırda ölkə gündəmində iqtisadiyyatın modernləşməsi və yerli məhsulların rəqabətqabiliyyətliyinin artırılması aktual mövzulardan biridir. Belə ki, iqtisadi cəhətdən inkişaf edən ölkələrin həm elmi-texniki geriliyi, həm də qlobal innovasiya mühitinə daxil olmaq istəyi tətbiq olunan yeniliklərin keyfiyyətindən və həcmindən yəni innovasiya fəaliyyətinin strateji və təşkilatı cəhətdən formalaşması prosesindən asılıdır. Ümumiyyətlə, iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əvvəlki təcrübələri göstərir ki, innovasiya fəaliyyətinin daha da səmərəli mexanizmlərinə sahib olan, yeniliklərin vacibliyini anlayan və reallaşdırılmasının inkişaf etdirilmiş strukturuna

malik olan müəssisələr və ya sahibkarlıq subyektləri qlobal bazarlarda rəqabət mübarizəsində rəqiblərinə asanlıqla qalib gəlirlər. Bu səbəbdən də keçid iqtisadiyyatı dövrünü arxada qoyan Azərbaycan kimi ölkələrin iqtisadi tərəfdən uğura nail olması üçün innovasiyaların tətbiqi vacib xarakter daşıyır (Tağıyev, 2012: 66).

İnnovasiya fəaliyyəti müəssisənin gəlirini artırır və uzunmüddətli dövrdə onun rəqabətqabiliyyətini formalaşdırır. İnnovativ ideyalar yalnız elmi araşdırma nəticəsində meydana çıxmır, əksər hallarda yeni ideyaları satıcılar, istehlakçılar, habelə maşın və material tədarükçüləri tərəfindən irəli sürülür. Qeyd olunmalıdır ki, innovasiya prosesi yalnız yeni elmi və yüksək texnoloji dəyişikliklərlə məhdudlaşmır, o, habelə sənayedə mövcud olan əmtəə və xidmətlərin transformasiyasını da əhatə edir. Bütün bu səbəblərdəndə, deyə bilərik ki, müəssisələrin innovasiya fəaliyyətlərinin genişləndirilməsini kompleks tədqiq və təhlil edərək araşdırıb öyrənilməsi önəmli və vacib olan məsələlərdəndir (Hüseynov, 2009: 20).

"İnnovasiya" anlayışı latın dilində "innovato" sözündən götürülmüşdür. XIX əsrdən istifadə olunsada, əsasən Yozef Şumpeterin "The Theory of Economic Development" əsərində işlədilərək elmi sistemə daxil olmuşdur. İnnovasiya ilə əlaqədar əsas anlayışlar hələ də fərqli şərh olunur. Ensiklopediyada göstərildiyi kimi "innovasiya - yüksək səmərəliliyə malik yeniliyin tətbiqi, insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtirasının son nəticəsidir. İnnovasiya fəaliyyətinin nəticəsi yeni və ya təkmilləşmiş məhsul (xidmət), texnoloji proses, həmçinin ictimai münasibətlərin müxtəlif sahələrində təşkilati-texniki, maliyyə-iqtisadi və digər hallar hesab edilir. İnnovasiya fəaliyyəti iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir" (Qasımov, 2009: 5).

Müasir dövrdə innovasiyalar iqtisadiyyatda sabit iqtisadi artımın təminatçısıdır. İnnovasiya sisteminin əsasını yeniliklərin məqsədyönlü axtarışı və tətbiqi təşkil edir.

İnnovasiya sistemi - yeniliklərin yaradılması prosesinin menecmentini, kollektivin yaradıcılıq imkanlarının daha da yaxşı istifadə edilməsi kimi anlayışları özündə ehtiva edir. Yeniliklərin tətbiqi ilə müəyyən səmərənin əldə olunması müəssisələrin bütün fəaliyyətinin əlaqələndirilməsi və informasiya resurslarından düzgün və dəqiq şəkildə istifadə mexanizminin yaradılmasından və yaxud da innovasiya fəaliyyəti zamanı sözügedən resursların qarşılıqlı təsirinin tənzimlənməsindən asılıdır. Ümumiyyətlə Azərbaycan iqtisadiyyatını götürsək görərik ki, rəqabətqabiliyyətli olmaq və mövcud problemləri aradan qaldırmaqla inkişaf etmək cəhdləri, müəssisələri onun qarşısında dayanan problemlərin sürətli və ya yaxud da məhsuldar həllinə kömək edən yeni resursların, idarəetmə alətlərinin axtarışına və istifadə olunması mexanizmlərinin tapılmasına məcbur edir. Belə ki, artıq Azərbaycanda tətbiq olunmağa başlayan yeni inkişaf strategiyasının ən önəmli istiqaməti ölkə daxilində davamlı şəkildə yüksək iqtisadi artım əldə etməyə yönəlmişdir. Sözsüz ki, bu da öz növbəsində rifah səviyyəsinin artmasına və iqtisadiyyatın diversifikasiyasına səbəb olacaqdır. Zənnimcə, təbii ehtiyatların hasili və ixracı amillindən ölkə iqtisadiyyatının asılılığının azaldılması, qeyri-neft yönümlü iqtisadi sektorların yüksək inkişaf tempinin əldə olunması kimi prioritet istiqamətlər müəyyən olunmalıdır ki, bu da iqtisadiyyatda innovasiyaların tətbiq olunma miqyasının genişləndirilməsi ilə bilavasitə əlaqədardır. Bu baxımdan da yuxarıda qeyd olunan miqyasın genişləndirilməsində ən böyük potensial İKT sahəsində önə çıxmışdır ki, Azərbaycan müəssisələrinin uzunmüddətli innovasiyalı inkişafının təmin olunmasında elm, təhsil və İKT-nin ölkənin qeyri-neft sektorunun payında gücləndirilməsinə xüsusi diqqət ayırmaq prioritet olaraq götürülməlidir (Qasımzadə, 2016: 89).

Azərbaycanda innovasiya yönümlü müəssisələrin təkmilləşdirilməsi üçün informasiya resurslarından daha şəffaf şəkildə istifadə və elektron xidmətlərin sayının artması çox əlverişli bir addım olardı. Bütün bu kimi problemli məsələlərin hamısının həlli özünü "Azərbaycan 2020 gələcəyə baxış" tapmasa da, bu konsepsiyada innovasiya yönümlü institutların yaradılmasını, müasir modelin formalaşdırılması və sosial infrastrukturun təkmilləşdirilməsi kimi məsələlərin həllini görmək mümkündür. Həmçinin təbii resurslardan ölkə iqtisadiyyatının asılılığının minimuma endirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi kimi həyati-vacib məsələlər ölkədə elmtutumlu istehsal sahələrinə və innovasiya sahibkarlığına olan diqqəti əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarmışdır. Azərbaycan iqtisadiyyatının demək olar ki, bütün sahələrində

innovasiya yönümlü istehsal və xidmət müəssisələrinin fəaliyyəti canlanmağa başlamışdır. Buraya biz tikinti, turizm və kənd təsərrüfatı, nəqliyyat, rabitə və digər sahələri qeyd edə bilərik (Aslanzadə, 2009: 23).

Son zamanlar beynəlxalq rəqabətin güclənməsi fonunda dövlətlərin səyləri yalnız innovasiyaların əsas mənbəyi olan elmi-tədqiqat və sınaq-konstruktor işlərinə maliyyə qoyuluşlarının və tədqiqatlarla məşğul olan qurumların, mütəxəssislərin artırılmasına deyil, həm də innovasiyaların həyata keçirilməsinin səmərəliliyini aşağı salan, biliklərin və texnologiyaların mübadiləsinə mane olan, innovativ sistemlərin fəaliyyətini çətinləşdirən sistem boşluqlarının aradan qaldırılmasına yonəldilir. Bunun üçün, mexanizmləri daha səmərəli olan, həmçinin onun bütün hissələrini işləməyə məcbur edən innovasiya sistemləri yaradılır (Əzizova, 2012: 15).

*İnnovasiya strukturlarının mahiyyəti, yaradılma məqsədləri, əsas funksiya və fəaliyyət istiqamətləri.* İnnovativ iqtisadi inkişafın əsasını innovasiya infrastrukturunu formalaşdıran innovasiya strukturları, o cümlədən İKT-profilli texnoparklar təşkil edir. Bu da biliklərə və innovasiyalara əsaslanan iqtisadiyyatın formalaşması prosesi kimi bir çox məsələlərlə yanaşı, innovasiya infrastrukturunun əsası olan strukturların, o cümlədən İKT profilli texnoparkların da yaradılmasını vacib edir. İnnovasiya strukturları milli və qlobal elmi-texniki nailiyyətlərin kommersiyalaşdırılmasının mənimsənilməsinə yardım etməklə, innovasiya mühitinin formalaşmasını yerinə yetirən xüsusiləşdirilmiş elm-istehsal kompleksləridir. İnnovativ strukturlar elə iqtisadi mühiti formalaşdırmağa imkan verir ki, həmin mühit elmi-texnoloji və istehsal sahibkarlığının sabit inkişafını, yeni kiçik və orta müəssisələrin yaradılmasını, rəqabətqabiliyyətli elmtutumlu məhsulun istehsalını və onların yerli və xarici bazarlara çatdırılmasını təmin etsin.

İnnovasiya infrastrukturunun əsas elementi kimi İKT profilli texnoparkların əsas məqsədləri aşağıdakılardır:

1. innovativ məhsulların kommersiyalaşdırılması;
2. iqtisadi artımın stimullaşdırılması;
3. elmi-texniki potensialdan istifadə intensivliyinin artırılması;
4. regional və qlobal təsərrüfat sistemlərinə inteqrasiya.

İKT-texnoparkları tədqiqat işi, texnologiyaların transferi, innovasiya sistemi, inkubator kimi əsas funksiyaları yerinə yetirir. Onların fəaliyyətinin bir çox istiqamətləri ola bilər.

*İnnovasiya strukturlarının fəaliyyətinin səmərəlilik problemi və ona təsir edən amillər.*

Ümumiyyətlə, iqtisadi səmərəlilik iqtisadi innovasiya sisteminin fəaliyyətinin faydalı son nəticələrinin sərf edilən resurslara olan nisbətidir. Sistemin sosial-iqtisadi səmərəliliyinin başlıca meyarını cəmiyyətin tələbatının ödəmə dərəcəsi təşkil edir (Rüstəmli, 2016: 96).

İqtisadi innovasiya sistemlərinin fəaliyyətində onların potensial və faktiki səmərəliliyi arasında müəyyən fərq müşahidə olunur. Bu isə ona bir çox amillərin təsirinin nəticəsidir. Həmin amillər bunlardır: resursların qeyri-optimal paylanması; iqtisadi stimulların mükəmməl olmaması; qəbul edilən qərarların yerinə yetirilmə keyfiyyətinin qənaətbəxş olmaması; kapital qoyuluşlarının süni şişirdilməsi və s.

İqtisadi səmərəlilik mütləq deyil, nisbi kəmiyyətdir. Onu təyin etməyin ən geniş yayılmış üsulu effektin qiymətini məsrəflərin qiymətinə bölməkdən ibarətdir. Buna görə də başqa şərtlər eyni olduqda iqtisadi səmərə çox və bundan ötrü istehsal edilmiş resurslar nə qədər az olarsa, sistemin səmərəliliyi də bir o qədər çox olar. Səmərəlilik səviyyəsi sistemin keyfiyyətinin və onu dəyişən amillərin keyfiyyətinin ən mühüm göstəricisidir. İqtisadi innovasiya sisteminin müəyyən şəraitdə ən yüksək səmərəliliyini təmin edən fəaliyyət variantı optimal variantdır. Sistemin fəaliyyətinin ümumi səmərəliliyi ilə yanaşı onun ayrı-ayrı hissələrinin və ona təsir göstərən amillərin xüsusi səmərəliliyi də nəzərdən keçirilir. Xüsusi səmərəliliyin ölçüsü onun ümumi səmərəliliyə töhfəsi ilə müəyyən edilir.

Səmərəliliyin iqtisadi, sosioloji, ekoloji və s. kimi növləri fərqləndirilir. Müəssisənin müxtəlif səviyyələrində iqtisadi səmərəlilik həmin səviyyələrə uyğun göstəricilərin vasitəsi ilə ölçülür. İqtisadi və sosial səmərəliliyin kəmiyyət göstəriciləri effektin kəmiyyətini təyin etməyə və iqtisadi problemlərin həllinin ən yaxşı variantlarını seçməyə imkan verir. Onlar dəyər və natural

göstəricilərə bölünür. Dəyər göstəricilərindən məsrəflərin və nəticələrin müxtəlif konkret növlərini ölçmək və effektin ümumi həcmini müəyyən etmək üçün istifadə edilir. Natural göstəricilər isə, əsasən dəyər göstəriciləri ilə tam ölçülə bilməyən effekt növlərini qiymətləndirmək üçün tətbiq edilir.

Bunları nəzərə alaraq, qeyd etmək olar ki, innovasiya strukturlarının səmərəliliyi onların işinin və idarə edilməsinin səmərəliliyindən asılıdır. Bu sferaların hər birinin səmərəliliyi həmin sahədə alınan nəticələrin sərf olunan xərclərə olan nisbəti ilə müəyyən edilir və kəmiyyət göstəricilərinin çoxluğu ilə müəyyənləşir (Məmmədova, 2016: 35).

İnnovativ istehsalın səmərəliliyini müəyyənləşdirmək üçün əmək məhsuldarlığı, fond verimi, rentabellik, öz xərcini ödəmə və s. kimi göstəricilərdən də istifadə etmək olar. Onların köməyi ilə innovativ istehsalın təşkili, onun struktur problemlərinin həllinin müxtəlif variantları müqayisə edilir. Bütövlükdə, müəssənin fəaliyyətinin səmərəliliyi onun fəaliyyət göstərən obyektlərinin səmərəliliklərinin cəmindən ibarətdir.

Hər bir obyektin səmərəliliyi isə məhsul və xidmət istehsalına daha az xərc çəkmək imkanı ilə xarakterizə olunur. Bu, minimal xərc çəkməklə münasib keyfiyyətli məhsuldan maksimal həcmdə istehsal etmək və ən az xərclərlə bu məhsulu satmaq qabiliyyətidir. İnnovasiya strukturlarının iqtisadi səmərəliliyi onun məhsulunun bazarın və istehlakçıların tələblərinə uyğunluğundan da asılıdır.

İnnovasiya strukturlarının səmərəliyinin qiymətləndirmə prosesi bəzi hallarda özündə aşağıdakı səmərəlilik növünü birləşdirən kompleks qiymətləndirilməyə gətirir:

Tələbat (məqsədlərin tələbatlara, ideallara və normalara nisbəti), səmərəlilik (faydalı nəticənin qoyulan məqsədlərə nisbəti) və məxaric (xərclərin alınan nəticələrə nisbəti).

Səmərəliliyin bu cür qiymətləndirilmə metodlarından hər birinin öz üstünlükləri və çatışmazlıqları vardır. Bu, onu deməyə əsas verir ki, səmərəliliyin qiymətləndirilməsinə dair mütləq üstün yanaşma yoxdur. Belə şəraitdə mövcud yanaşmaların seçimində innovasiya strukturlarının investor, menecer və işçi heyət kimi qruplarının maraqlarının balanslaşdırılmasını təmin etməyin böyük əhəmiyyəti var.

Bu üç maraqlı qrupun mənafelərinin üstüstə düşmə faizini bu halda səmərəlilik göstəricisi hesab etmək olar. Ona görə də, səmərəliliyin qiymətləndirilməsi üsulunu seçərkən, innovasiya strukturlarının konkret vəziyyəti nəzərə alınmalı və daha optimal yanaşma seçilməli və ya eyni vaxtda bir neçə yanaşmanın ən yaxşı xüsusiyyətlərindən istifadə edilməlidir (Məmmədova, 2016: 91).

İnnovasiya strukturlarının fəaliyyətinin qiymətləndirilməsinə dair əsas mövcud yanaşmalardan biri onların fəaliyyətinin qiymətləndirilməsinin keyfiyyət meyarlarının seçilməsi üzərində qurulmasıdır. Belə ki, strukturların 50%-nin fəaliyyəti, bir qayda olaraq, hakimiyyət orqanları tərəfindən yeni iş yerlərinin sayı ilə qiymətləndirilir. İkinci yerdə (17%) – yeni yaradılan müəssisələrin sayı durur. Bu siyahıda üçüncü yeri (16%) struktura cəlb olunan müəssisələrin sayının qiymətləndirilməsi tutur. Hakimiyyət orqanları tərəfindən innovasiya strukturlarının 6%-nin işinin səmərəliliyi KİV-də həmin strukturlar haqda olan rəylər vasitəsilə qiymətləndirilir. Göründüyü kimi, innovasiya strukturlarının fəaliyyətinin qiymətləndirilməsinə dair vahid yanaşma yoxdur.

## Nəticə

Son dövrlərdə ölkəmizdə həyata keçirilən islahatlar bütün sahələrdə müsbət nəticələrin əldə olunmasına şərait yaratmışdır. Eyni zamanda, sərbəst bazar iqtisadiyyatı institutlarının yaradılması və sahibkarlığın inkişaf etdirilməsi, innovasiyalara əsaslanan iqtisadiyyat modelinin bərqərar olması istiqamətində mühüm addımlar atılmışdır.

İnkişaf etməkdə olan sənaye ölkəsi olan Azərbaycanda innovasiya kapitalı üçün güzəştli vergitutma, yüksək ixtisaslı kadrların hazırlanması, zəruri infrastrukturun inkişafına yönəldilmiş investisiya siyasəti və digər belə tənzimləmə vasitələr ilə müəssisələrin innovasiya laboratoriyalarının və istehsal sahələrinin yaradılması stimullaşdırıla bilər. Müəssisələrin innovasiya fəaliyyətinin milli iqtisadiyyata cəlb edilməsi ölkənin elmitexniki potensialının genişlənməsinə, rəqabətqabiliyyətliliyinin mövcud olan amillərindən istifadənin səmərəliliyinin yüksəlməsinə,

innovasiya prosesinin intensivləşməsinə və son nəticədə Azərbaycanın beynəlxalq arenada rəqabətqabiliyyətliliyinin yüksəlməsinə kömək edə bilər.

Beləliklə, müəssisələrin uğurlu innovasiya siyasəti ölkələrin bu prosesdə mövqeyinə təsir göstərməklə onların rəqabətqabiliyyətliliyinin yüksəldilməsində mühüm rol oynayır.

## Ədəbiyyat

1. Atakişiyev, M. (2004). İnnovasiya menecmenti. Bakı: Təfəkkür. 10 s.
2. Tağıyev, A. (2012). İnnovasiya (2 saylı broşura). Bakı: Təknur. 66 s.
3. Hüseynov, T. (2009). Firma iqtisadiyyatı. Bakı: Səda. 590 s.
4. Qasımov, F. (2009). İnnovasiyalar: yaranma və inkişaf perspektivləri. Bakı: Elm. 214 s.
5. Qasımzadə, C. (2016). Azərbaycanda innovasiya siyasətinin effektivliyinin artırılması yolları. Bakı: ADİU, 89 s.
6. Aslanzadə, İ. (2009). İnnovasiyanın idarə edilməsi. Bakı: Elm. 23 s.
7. Əzizova, G. (2012). Dövlətin investisiya-innovasiya siyasəti. Bakı: UNEC. 15 s.
8. Rüstəmli, T. (2016). İnnovasiyali inkişaf modelinə keçid mexanizmi. Bakı: ADİU. 96 s.
9. Məmmədova, N. (2016). Biznesin innovasiyalı inkişaf istiqamətləri. Bakı: ADİU. 91 s.

**Rəyçi: i.e.d. Yadulla Həsənli**

Göndərilib: 11.10.2022 Qəbul edilib: 05.12.2022